**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№357/4** **12 iyun 2023-cü il**

**“Auditor fəaliyyəti ilə məşğul olan şəxslərin cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində öhdəlikləri” barədə**

Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasının və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınması məqsədilə bu sahədə Türkiyə təcrübəsindən yararlanmaqla işçi qrupu (işçi qrupunun rəhbəri – Q.Bayramov; üzvlər – N.Talıbov, E.İbrahimov, Q.Əhmədov, R.Cəfərli) tərəfindən hazırlanmış “Auditor fəaliyyəti ilə məşğul olan şəxslərin cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində öhdəlikləri”nin layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. “Auditor fəaliyyəti ilə məşğul olan şəxslərin cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində öhdəlikləri” təsdiq edilsin (əlavə olunur).

2. Haqsız rəqabətə qarşı mübarizə idarəsinə (R.Cəfərli) tapşırılsın ki, bu qərarın və “Auditor fəaliyyəti ilə məşğul olan şəxslərin cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində öhdəlikləri”nin mətnlərinin auditor təşkilatlarına və sərbəst auditorlara göndərilməsi təmin edilsin.

3. Auditor təşkilatlarına və sərbəst auditorlara tapşırılsın ki, xidmət göstərərkən “Auditor fəaliyyəti ilə məşğul olan şəxslərin cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində öhdəlikləri”ni rəhbər tutsunlar.

4. Auditin hüquqi tənzimlənməsi və dövlət orqanları ilə iş idarəsinə (E.İbrahimov) və Palata sədrinin elmi-metodik məslələr üzrə müşavirinə (N.Talıbov) tapşırılsın ki, 2023-cü ilin III rübündə “Auditor fəaliyyəti ilə məşğul olan şəxslərin cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində öhdəlikləri” barədə auditor təşkilatları və sərbəst auditorlara seminarın keçirilməsi təmin edilsin.

5. Bu qərarın və “Auditor fəaliyyəti ilə məşğul olan şəxslərin cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində öhdəlikləri”nin mətnləri Auditorlar Palatasının internet səhifəsində və “Auditorun şəxsi kabineti” sistemində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**